**UOT№(070,49)**
**https://doi.org/10.59849/2710-0820.2026.1.292**

**Aytəkin Zeynalova**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti*
*phd.aytekinzeynalova@gmail.com*

# QLOBAL TƏHLÜKƏSİZLİK XƏRİTƏSİNDƏ AZƏRBAYCANIN DOMİNANT ROLU

***Açar sözlər:*** *Münxen Təhlükəsizlik Konfransı, Cənubi Qafqaz, regional təhlükəsizlik, enerji diplomatiyası, sülh prosesi*

## Giriş

XXI əsrdə beynəlxalq təhlükəsizlik sisteminin transformasiyası qlobal siyasətin əsas müzakirə mövzularından birinə çevrilmişdir. Regional münaqişələrin artması, enerji təhlükəsizliyi məsələləri, geosiyasi rəqabətin güclənməsi və yeni texnoloji çağırışlar beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışının daha geniş və kompleks məzmun kəsb etməsinə səbəb olmuşdur. Bu kontekstdə dövlətlər və beynəlxalq təşkilatlar arasında dialoqun inkişaf etdirilməsi və təhlükəsizlik məsələlərinin çoxtərəfli müzakirəsi xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan Münxen Təhlükəsizlik Konfransı qlobal təhlükəsizlik arxitekturasının müzakirə edildiyi ən mühüm beynəlxalq platformalardan biri hesab olunur. 1963-cü ildən keçirilən bu konfrans ilkin mərhələdə əsasən transatlantik təhlükəsizlik məsələlərinə fokuslansa da, sonrakı dövrlərdə onun iştirakçı coğrafiyası genişlənərək qlobal təhlükəsizlik dialoqu platformasına çevrilmişdir. Bu platformada dövlət başçıları, hökumət nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri və aparıcı ekspertlər müasir təhlükəsizlik problemlərinin həlli yollarını müzakirə edirlər (10).

Müasir dövrdə Cənubi Qafqaz regionu da qlobal təhlükəsizlik müzakirələrinin vacib komponentlərindən biri kimi çıxış edir. Xüsusilə Azərbaycanın enerji siyasəti, nəqliyyat layihələri və regional diplomatiya strategiyası ölkənin beynəlxalq sistemdə rolunu gücləndirmişdir. Avropa İttifaqının enerji təchizatının şaxələndirilməsi siyasətində Azərbaycan mühüm tərəfdaş kimi qiymətləndirilir və Xəzər regionundan Avropaya qaz nəqlini təmin edən Cənub Qaz Dəhlizi layihəsi bu əməkdaşlığın əsas elementlərindən biridir.

Eyni zamada 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşmış və regionda sülh və əməkdaşlıq imkanları genişlənmişdir. Bu kontekstdə Azərbaycanın regional təhlükəsizlik siyasəti və sülh təşəbbüsləri beynəlxalq müzakirələrin mühüm mövzularından birinə çevrilmişdir.

Məqalənin məqsədi Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycanın təqdim etdiyi regional sülh modelini və Prezident İlham Əliyevin çıxışlarında səsləndirilən əsas mesajları beynəlxalq təhlükəsizlik kontekstində təhlil etməkdir.

**1. Dünya Azərbaycanın potensialına böyük maraq göstərir.**

13 fevral 2026-cı ildə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın 62-ci Münxen Təhlükəsizlik Konfransında iştirak etdi.

Qlobal sülh və təhlükəsizlik: müasir dünyanın əsas çağırışları ətrafında geniş dialoqu təşviq edən Münxen Təhlükəsizlik konfransında hər zaman arzuolunan qonaq qismində iştirak edən Prezident İlham Əliyevin konfrans çərçivəsində keçirilən müxtəlif toplantılarda verdiyi mühüm mesajlar beynəlxalq arenada geniş müzakirə mövzusuna çevrildi. İstər dünya liderləri, istər nüfuzlu beyin mərkəzləri, habelə media

vasitələri Azərbaycan Prezidentinin qlobal proseslərlə bağlı baxışlarına həssas yanaşaraq yüksək dəyər verdi.

44 günlük Vətən müharibəsində qazanılan qələbədən və məhz Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar, yeni münasibətlər sistemi yaratmasından sonra isə Prezident İlham Əliyevin regional və qlobal baxışlarına maraq heç şübhəsiz ki, daha da artıb. Bunu ən müxtəlif platformalarda olduğu kimi Münxen Təhlükəsizlik Konfransında da görmək elə də çətin deyildi. Çünki hazırda faktiki bütün müzakirə mərkəzlərinin bir məqsədi, bir ana mövzusu var-qlobal çağırışlarla birgə mübarizə yollarının tapılması. Bu nöqteyi nəzərdən hazırda dünyada gedən mürəkkəb proseslər, dərin ixtilaflar, müharibə və münaqişələr fonunda Almaniyada bir araya gələn liderlərin də başlıca mesajları planetin gələcəyi üçün özünəməxsus yol xəritəsinin müəyyənləşdirilməsinə yönəlmişdir. Lakin etiraf edək ki, bütün platformalarda məhz bu məqsədlə deyilən fikirlərin faktiki 90 faizi praktikaya yox, nəzəriyyəyə əsaslanır. Dünyada sülh üçün isə nəzəri fikirlərə, başqa sözlə hipotezlərə əsaslanmaq yox, praktik düşüncə, praktik həll yolu və praktikaya söykənən nəticələr lazımdır. Belə bir nümunə varmı? 30 illik dönəmdə işğal və müharibə, vandallıq və soyqırımlar yaşamış, lakin sonradan bütün bunları cəmi 44 günə həll etmiş Azərbaycan nümunəsi var. O səbəbdəndir ki, artıq bir çoxları üzünü Azərbaycan Prezidentinə, başqa sözlə siyasi və milli iradəyə sahib liderə çevirib onu dinləyir və onun fikirlərinə maraqla yanaşır. Amma yalnız bu da deyil.

1. Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşdır.

2. Azərbaycan Avropanın enerji təhlükəsizliyində strateji rol oynayır.

3. Azərbaycan Şərqlə Qərbi birləşdirən nəqliyyat layihələri üzrə Avropa İttifaqı ilə əməkdaşlıq edir.

4. Avropanın bir çox ölkələri quruculuq və minatəmizləmə prosesində ölkəmizə dəstək verir.

5. Azərbaycanın yaratdığı sülh reallıqları qoca qitədə mövcud olan problemlərin həlli üçün presedentə çevrilir.

6. Avropanın nüfuzlu şirkətləri Azərbaycanı təhlükəsiz ölkə adlandıraraq, ölkəmizə investisiya yatırmağa hazır olduğunu bildirir (5).

Bizim praktik nümunələrimiz yalnız Qarabağ müharibəsində qazanılan qələbə üzərində qurulmayıb. Azərbaycanın həm coğrafi, həm də iqtisadi cəhətdən mühüm status daşıması, məhz Azərbaycanın müəllifliyi ilə reallaşan regional və qlobal layihələr, ölkəmizin zəngin enerji potensialı, həmçinin əlverişli nəqliyyat, tranzit imkanları və bu imkanlardan maksimum yararlanmağa imkan verən müasir infrastruktur və ən əsası, əməkdaşlıqda sözlə-əməlin vəhdəti prinsipini nümayiş etdirən Prezident İlham Əliyev ölkəmizi bütün platformalarda maraqlı və etibarlı tərəfdaşa çevirir.

Prezident İlham Əliyev: “İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt – yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır” (6).

Təbii, yeni dünya trendlərinə çevik və uğurlu adaptasiya, həmçinin qarşıya qoyulan strateji hədəflərin reallaşdırılması sabitlik və təhlükəsizliklə birbaşa bağlıdır. Məhz ona görə də Prezident İlham Əliyev faktiki bütün platformalarda sülh və təhlükəsizlik mesajları verir. Bütün platformalara Cənubi Qafqazın sülh lideri kimi qatılır (9). Elə Münxendə olduğu kimi. 20 yanvar tarixində Davosda, bu dəfə isə Münxendə Azərbaycan lideri diqqəti regional sülhə və əməkdaşlığa yönəltdi. Bu modelin rəsmi təsdiqi ötən il Vaşinqtonda qoyulsa da, hər kəs gözəl bilir ki, prezident İlham Əliyevin sülh modelinin yaşı ən azı yaxın 20 illik dövrü əhatə edir. Azərbaycan lideri Cənubi Qafqazda yeni reallıqların müəllifi kimi sülhə aparan komponentləri 20 illik dönəmdə addım-addım təmin edib. Şəxsən özü, təkbaşına. Bu gün Vaşinqtonda, yaxud digər beynəlxalq platformalarda gördüklərimiz bir günün, yaxud bir ayın, hətta bir ilin də deyil, gedilən həmin o uzun yolun prak-

tik nəticələridir. Bu nəticələr nələrdən ibarətdir? Ərazi bütövlüyünün qarşılıqlı tanınması, kommunikasiyaların açılması, delimitasiya və demarkasiya prosesinin başlanması, etimad quruculuğunun yaradılması. Oval kabinetdə sülh müqaviləsinin paraflanması, həmçinin Azərbaycan nümayəndə heyətinin artıq quru yolla Ermənistana səfəri və dialoq mühitində dinc, yanaşı yaşamaq ətrafında diskussiyaların aparılması.

2. **Bakının sülhə dair mesajları**

Prezident İlham Əliyev: “Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, mən hesab edirəm ki, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması defakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır. Konstitusiyaya nə qədər tez dəyişiklik edilərsə və Azərbaycana qarşı olan ərazi iddiası oradan çıxarılarsa, sülh müqaviləsi o qədər də tez imzalanacaq”(4).

Prezident Ermənistanla sülh sazişinin imzalanması şərtlərinə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Frans 24 kanalına müsahibəsində də ətraflı toxundu və kifayət qədər mühüm mesajlar verdi. Düşünürük ki, həmin mesajlar kövrək sülh münasibətlərinin xarakterinə tam aydınlıq gətirir. Odur ki, Prezidentin səsləndirdiyi nüanslara bir-bir toxunmaq vacibdir. İlk olaraq, Vaşinqton sülh razılaşmasından sonra Ermənistanla sərhəddə vəziyyətin sabitləşməsi hər iki tərəf, ümumilikdə isə region üçün ciddi uğur sayılmalıdır. Çünki, salahlar susub. Kimsə həyatını itirmir, kimsə yaralanmır və bu gün Cənubi Qafqazda təhlükəsiz bir mühit yaranıb. Amma burada kiçik bir detal dvar. Sülh sazişi və normallaşma bir-birindən tamamilə fərqli proseslərdir. Yəni bu gün normallaşmanın elementlərini hər kəs görür və qiymətləndirir. Bunun üçün də Prezidentin qeyd etdiyi kimi, Ermənistan konstitusiyasındakı qondarma Dağlıq Qarabağ və “Ermənistan birləşməlidir” məzmunlu paraqraf Ali Qanundan çıxarılmalıdır.

Paraqraf ləğv olunmayınca da yekun sülhdən danışmaq olmaz. Çünki bu, Azərbaycana qarşı ərazi iddiası deməkdir. Odur ki, məsələ mütləq şəkildə referendum səviyyəsində özünün hüquqi həllini tapmalıdır.

Prezident İlham Əliyev: “artıq sülhə nail olunub. Yekun sülh sazişini imzalamaq üçün müəyyən formal xarakter daşıyan məsələlər var. Lakin qeyd etdiyiniz bəyannamə ilə yanaşı, hər iki ölkənin xarici işlər naziri Vaşinqtonda sülh sazişinin mətnini də parafladılar. Beləliklə, mənim üçün bu, artıq bitmiş işdir. Hesab edirəm ki, Ermənistanın Baş naziri də mənimlə eyni fikirdədir. Biz elə indi sülh şəraitində yaşamağı öyrənirik və bu, çox yaxşı bir hissdir” (1).

Sülh sazişinin mətninin paraflanması artıq əməkdaşlıq istiqamətində addım atmaq üçün siyasi iradənin olduğunu göstərir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Açıq dəhliz siyasəti, Transxəzər əməkdaşlığının dərinləşdirilməsi mövzusunda keçirilən panel müzakirələrdə iştirak edən Prezident İlham Əliyev bildirdi ki, həqiqətən də regionda yeni vəziyyət yaranıb. Amerika Birləşmiş Ştatlarının dəstəyi sayəsində bölgədə təmin olunan sabitlik gələcəyə daha inamla baxmağa və müxtəlif layihələr hesabına inteqrasiyanı daha da gücləndirməyə imkan verir. Ancaq hər bir halda qarşılıqlı anlaşma və ümumi maraqlara xidmət edən layihələrə keçid sülh sazişinin imzalanmasından keçir. Rəsmi Bakı Sülh Forumunun sonuncu bəndi Ermənistan Konstitusiyasının preambula hissəsindən Azərbaycana qarşı ərazi iddiasının çıxarılmasında israrlıdır və bu qərarı gələcək sülhün, eləcə də təhlükəsizliyin açarı sayır.

Prezident İlham Əliyev: “Azərbaycan ilə Ermənistan arasında sonuncu qanlı toqquşmadan Vaşinqton Sammitinə qədər çəkən müddət iki ildən az olub. Düşünürəm ki, bütün münaqişələri, xüsusən də üç onillik çəkən münaqişələri götürsək, bu, rekord göstəricidir. Bir sözlə, hər iki tərəf güclü siyasi iradə göstərdi ki, toqquşmaya son qoyulsun və sülh səhifəsi açılsın. Biz cəmi altı aydır ki, sülh içində yaşayırıq və inanın ki, bu, çox xüsusi hissdir, çox yaxşı hissdir və Azərbaycan əhalisi bunları bölüşür. Əminəm ki, Ermənistan əhalisi də. Bağlantı layihələri və dəhlizləri bizi daha sıx birləşdirəcək, bir-birimizdən daha asılı edəcək, Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaradacaq və bu halda Azərbaycan, Gürcüstan və Ermənistan üçtərəfli

qaydada nəhayət qarşılıqlı fəaliyyətə başlayacaqlar" (7).

Prezident İlham Əliyevin səsləndirdiyi "artıq sülhə nail olunub" fikri Cənubi Qafqaz regionunda formalaşan yeni siyasi reallıqların mahiyyətini ifadə edən mühüm strateji mesaj kimi qiymətləndirilə bilər. Bu yanaşma klassik diplomatik ritorikadan daha çox postmünaqişə mərhələsinin siyasi məntiqinə əsaslanır. Prezidentin fikirlərində əsas vurğu ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında uzun illər davam edən qarşıdurmanın hərbi mərhələsi artıq arxada qalıb və tərəflər arasında siyasi dialoq mərhələsi başlamışdır. Bu baxımdan sülh müqaviləsinin tam şəkildə imzalanması yalnız müəyyən prosedur və hüquqi formalıqların tamamlanması ilə bağlıdır.

Prezidentin çıxışında diqqət çəkən mühüm məqam sülh anlayışının yalnız hüquqi sənədlərlə deyil, həm də real siyasi vəziyyətlə müəyyən edilməsi ideyasıdır. O qeyd edir ki, Vaşinqtonda əldə olunan razılaşmalar və sülh müqaviləsinin mətninin paraflanması faktiki olaraq münaqişənin siyasi həllinin əldə olunduğunu göstərir. Beynəlxalq münasibətlər nəzəriyyəsində bu yanaşma "de-fakto sülh" kimi xarakterizə olunur. Yəni tərəflər arasında hüquqi sənəd hələ tam qüvvəyə minməsə də, hərbi qarşıdurmanın dayanması və siyasi razılaşmaların əldə olunması real sülh mühitinin formalaşdığını göstərir.

Prezident İlham Əliyevin fikirlərində diqqət çəkən digər vacib məqam tərəflərin artıq sülh şəraitində yaşamağa alışmaq mərhələsinə keçdiyini vurğulamasıdır. Bu fikir regionda uzun illər davam edən münaqişənin yaratdığı psixoloji və siyasi gərginliyin tədricən aradan qalxdığını göstərir. Münaqişə dövründə formalaşmış qarşılıqlı etimadsızlıq mühiti postmünaqişə mərhələsində yeni siyasi münasibətlər sistemi ilə əvəz olunmağa başlayır. Bu isə yalnız siyasi razılaşmaların deyil, həm də regional əməkdaşlıq perspektivlərinin genişlənməsi deməkdir.

Prezidentin çıxışının məntiqi davamı olaraq qeyd etmək olar ki, Cənubi Qafqazda formalaşan yeni vəziyyət yalnız iki ölkə arasındakı münasibətlərin normallaşması ilə məhdudlaşmır. Bu proses eyni zamanda regionun geosiyasi strukturunun dəyişməsi ilə müşayiət olunur. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri, həmçinin regional iqtisadi əməkdaşlıq təşəbbüsləri Cənubi Qafqazın qlobal iqtisadi və siyasi sistemdə rolunu artırır. Xüsusilə Şərq və Qərbi birləşdirən nəqliyyat dəhlizlərinin inkişafı, enerji resurslarının beynəlxalq bazarlara çıxarılması və yeni kommunikasiya xətlərinin açılması regionun strateji əhəmiyyətini daha da gücləndirir.

Bu baxımdan Prezident İlham Əliyevin Münxendə səsləndirdiyi mesajlar Azərbaycanın regional siyasətinin əsas istiqamətlərini aydın şəkildə göstərir. Azərbaycan postmünaqişə dövründə yalnız hərbi qələbə əldə etmiş dövlət kimi deyil, həm də regionda sülh və əməkdaşlıq gündəliyini təşviq edən mühüm siyasi aktor kimi çıxış edir. Bu siyasətin əsas məqsədi Cənubi Qafqazı qarşıdurma məkanından əməkdaşlıq və iqtisadi inteqrasiya regionuna çevirməkdir (8).

Nəticə etibarilə qeyd etmək olar ki, Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında səsləndirdiyi fikirlər regionda yeni təhlükəsizlik modelinin formalaşdığını göstərir. Bu modelin əsasını sülh, qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri təşkil edir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən siyasi və iqtisadi layihələr regionda sabitliyin möhkəmlənməsinə və yeni əməkdaşlıq imkanlarının yaranmasına şərait yaradır. Bu baxımdan Azərbaycanın təqdim etdiyi sülh və əməkdaşlıq modeli yalnız Cənubi Qafqaz üçün deyil, eyni zamanda daha geniş geosiyasi məkan üçün də mühüm nümunə kimi qiymətləndirilə bilər.

Bütün bunlar göstərir ki, Cənubi Qafqaz regionunda formalaşan yeni siyasi vəziyyət yalnız iki dövlət arasında münasibətlərin normallaşması ilə məhdudlaşmır. Əslində burada söhbət daha geniş miqyaslı geosiyasi transformasiyadan gedir. Uzun illər qarşıdurma və münaqişə ilə xarakterizə olunan region tədricən əməkdaşlıq və qarşılıqlı iqtisadi asılılıq modelinə doğru yönəlir. Bu transformasiyanın əsas hərəkətverici qüvvələrindən biri isə Azərbaycanın həyata keçirdiyi çoxşaxəli regional siyasət və təşəbbüslərdir.

Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan enerji, nəqliyyat və logistika layihələri regionu qlobal iqtisadi sistemə daha sıx inteqrasiya edir. Xüsusilə Şərq və Qərb arasında mühüm tranzit məkanı kimi çıxış edən Cənubi Qafqazın strateji əhəmiyyəti son illərdə daha da artıb. Bu ba-

xımdan region yalnız enerji resurslarının ixrac marşrutu kimi deyil, həm də beynəlxalq nəqliyyat və ticarət əlaqələrinin mühüm qovşağı kimi çıxış edir. Transxəzər nəqliyyat dəhlizi, Orta Dəhliz layihəsi və digər regional kommunikasiya xətləri Avropa ilə Asiya arasında iqtisadi əlaqələrin genişlənməsinə mühüm töhfə verir. Bu proseslər region ölkələri arasında iqtisadi əməkdaşlığın güclənməsi üçün də yeni imkanlar yaradır (2).

Postmünaqişə dövründə sülh gündəliyinin irəli sürülməsi yalnız siyasi razılaşmaların əldə olunması ilə deyil, eyni zamanda iqtisadi və humanitar əməkdaşlığın inkişaf etdirilməsi ilə də bağlıdır. Regional inteqrasiyanın gücləndirilməsi qarşılıqlı etimadın formalaşmasında mühüm rol oynayır. Bu baxımdan kommunikasiya xətlərinin açılması, ticarət əlaqələrinin genişləndirilməsi və ortaq iqtisadi layihələrin həyata keçirilməsi sülhün davamlılığını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir.

Digər tərəfdən, regionda yaranmış yeni geosiyasi reallıqlar beynəlxalq aktorların Cənubi Qafqaza marağını da artırıb. ABŞ, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar regionda sabitliyin təmin edilməsini qlobal təhlükəsizlik baxımından mühüm amil kimi qiymətləndirirl. Bu kontekstdə Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu regionun beynəlxalq siyasi və iqtisadi sistemdə rolunun artmasına şərait yaradır.

Bütün bu amillər göstərir ki, Cənubi Qafqaz regionunda formalaşan yeni siyasi və iqtisadi münasibətlər sistemi yalnız regional çərçivədə deyil, daha geniş geosiyasi məkan üçün də mühüm əhəmiyyət daşıyır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr və irəli sürülən sülh təşəbbüsləri regionun uzun illər davam edən münaqişə mühitindən əməkdaşlıq platformasına çevrilməsinə imkan yaradır.

Beləliklə, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində səsləndirilən fikirlər və aparılan müzakirələr göstərir ki, müasir beynəlxalq münasibətlər sistemində regional sülh təşəbbüsləri qlobal təhlükəsizlik gündəliyinin ayrılmaz hissəsinə çevrilib. Azərbaycan bu prosesdə yalnız regional aktor kimi deyil, eyni zamanda beynəlxalq əməkdaşlıq və təhlükəsizlik məsələlərində konstruktiv mövqeyi ilə seçilən dövlət kimi çıxış edir. Bu isə Azərbaycanın beynəlxalq siyasi sistemdə rolunun daha da gücləndiyini və regionun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm təsir imkanlarına malik olduğunu göstərir.

**Nəticə**

Aparılan təhlil göstərir ki, Münxen Təhlükəsizlik Konfransı müasir beynəlxalq münasibətlər sistemində yalnız təhlükəsizlik problemlərinin müzakirə edildiyi platforma deyil, eyni zamanda qlobal siyasi proseslərin istiqamətlərinin müəyyənləşdirildiyi mühüm strateji dialoq məkanıdır. Bu platforma dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, ekspertlər və analitiklər üçün qlobal təhlükəsizlik gündəliyinin əsas məsələlərinin müzakirə olunduğu mühüm siyasi tribuna rolunu oynayır. Münxen Təhlükəsizlik Konfransında səsləndirilən ideyalar və yanaşmalar beynəlxalq siyasətin gələcək istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Azərbaycanın bu platformada fəal iştirakı ölkənin beynəlxalq təhlükəsizlik sistemində artan rolunun göstəricisidir. Prezident İlham Əliyev tərəfindən konfrans çərçivəsində səsləndirilən fikirlər Azərbaycanın regional və qlobal təhlükəsizlik məsələlərinə dair mövqeyinin aydın şəkildə formalaşdığını göstərir. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat və logistika layihələri, regional əməkdaşlıq təşəbbüsləri və postmünaqişə dövründə sülh gündəliyinin təşviqi Azərbaycanın beynəlxalq siyasi sistemdə mövqeyini gücləndirən əsas amillər kimi çıxış edir.

Eyni zamanda məqalədə aparılan təhlil göstərir ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi nəticəsində Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar formalaşıb. Azərbaycanın ərazi bütövlüyünün bərpası regionda uzun illər davam edən münaqişənin hərbi mərhələsinə son qoymuş və postmünaqişə mərhələsinin başlanması üçün yeni imkanlar yaratmışdır. Bu yeni mərhələ regional təhlükəsizlik sisteminin yenidən formalaşması və əməkdaşlıq modelinin qurulması ilə xarakterizə olunur.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında səsləndirdiyi fikirlərdən də aydın olur ki, Azərbaycan postmünaqişə dövründə regionda sülh və əməkdaşlıq modelinin təşviqinə xüsusi əhəmiyyət verir. Bu model

yalnız siyasi razılaşmaların əldə olunması ilə məhdudlaşmır, eyni zamanda iqtisadi inteqrasiya, nəqliyyat və enerji layihələrinin inkişafı, regional kommunikasiya xətlərinin açılması və qarşılıqlı etimadın formalaşdırılması kimi elementləri də əhatə edir. Belə bir yanaşma regionda uzunmüddətli sabitliyin təmin olunması üçün mühüm zəmin yaradır (3).

Bununla yanaşı, Azərbaycanın həyata keçirdiyi enerji və nəqliyyat layihələri regionun qlobal iqtisadi sistemdə rolunun artmasına da mühüm təsir göstərir. Xüsusilə Şərq və Qərbi birləşdirən nəqliyyat dəhlizləri və enerji marşrutları Cənubi Qafqazı beynəlxalq iqtisadi əlaqələrin mühüm qovşaqlarından birinə çevirir. Bu isə regionun yalnız siyasi deyil, həm də iqtisadi baxımdan strateji əhəmiyyətini artırır.

Beləliklə, aparılan araşdırma göstərir ki, Azərbaycanın regional siyasəti Cənubi Qafqazın uzun illər davam edən qarşıdurma məkanından əməkdaşlıq və inteqrasiya platformasına çevrilməsinə yönəlmişdir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində səsləndirilən fikirlər və aparılan müzakirələrdən aydın olur ki, Azərbaycan regionda sülh və sabitliyin təmin edilməsində mühüm rol oynayan əsas aktorlardan biridir. Bu baxımdan Azərbaycanın irəli sürdüyü sülh və əməkdaşlıq modeli yalnız regional təhlükəsizlik üçün deyil, həm də daha geniş geosiyasi məkan üçün mühüm əhəmiyyət kəsb edən strateji yanaşma kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT

1. APA.az., (2026), Prezident İlham Əliyev Münxendə "France 24" telekanalına müsahibə verib https://apa.az/resmi-xeber/prezident-ilham-eliyev-munxende-france-24-telekanalina-musahibe-verib-939493

2. Akimova, E, (2026), Münxen-2026: Azərbaycanın qlobal təhlükəsizlik manifesti https://azertag.az/xeber/munxen_2026_azerbaycanin_qlobal_tehlukesizlik_manifesti____serh-4023787

3. Bəşirov, X., (2026), Münxen Konfransı Azərbaycan Prezidentinin ciddi mesajları və önəmli bəyanatları ilə yadda qaldı https://azertag.az/xeber/munxen_konfransi_azerbaycan_prezidentinin_ciddi_mesajlari_ve_onemli_beyanatlari_ile_yadda_qaldi_rey-4026363

4. Moderin.az., (2026), Mövqeyimiz Ermənistan tərəfinə çatdırılıb - İlham Əliyev https://modern.az/az/olke/568338/prezident-ermenistan-konstitusiyasina-deyisiklikler-edilen-kimi-biz-sulh-muqavilesini-imzalaya-bilerik/

5. Məmmədov, R., (2026), Həftə verlişi, https://www.youtube.com/live/mjHWYoGNinA?si=cZtFImIntRyoP90J

6. Prezident.az., (2026), İlham Əliyev Münxendə Azərbaycan telekanallarına müsahibə verib, https://president.az/az/articles/view/71601

7. Prezident. Az, (2026), İlham Əliyev Münxendə panel müzakirələrdə iştirak edib https://president.az/az/articles/view/71605

8. Report. Az., (2026), Münxenin yeni reallıqları – İlham Əliyev regionun lideri kimi https://report.az/analitika/munxenin-yeni-realliqlari-ilham-eliyev-regionun-lideri-kimi-serh

9. Vəliyev, S., (2026), Münxen Təhlükəsizlik Konfransı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm platforma oldu https://azertag.az/xeber/munxen_tehlukesizlik_konfransi_azerbaycan_heqiqetlerinin_dunyaya_chatdirilmasinda_muhum_platforma_oldu____deputat-4023287

10. Zeynalova, A, (2024), Münxen Təhlükəsizlik Konfransı: Azərbaycan regional aktor kimi tanınır, Qədim Diyar- Şirməmməd Hüseynov 100 xüsusi buraxılış, https://doi.org/10.36719/2706-6185/43/43-49

## Резюме

### Айтекин Зейналова

### Доминирующая роль Азербайджана в глобальной архитектуре безопасности

В статье показано, что Мюнхенская конференция по безопасности выступает не только как платформа для обсуждения международных проблем безопасности, но и как важное политико-интеллектуальное пространство, в рамках которого формируются направления глобальных геополитических процессов. В условиях роста современных вызовов глобальной безопасности особое значение приобретает укрепление механизмов международного диалога и сотрудничества. В этом контексте Мюнхенская конференция по безопасности привлекает внимание как одна из ключевых платформ, на которой формируются взгляды мировых лидеров и ведущих экспертов на архитектуру глобальной безопасности.

В статье проводится анализ высказываний Ильхам Алиев, прозвучавших в рамках конференции, касающихся региональной безопасности, энергетического сотрудничества и мирной повестки, в контексте международного дискурса. Одновременно исследуются такие вопросы, как состояние безопасности в Южном Кавказе, возрастающая роль Азербайджана в энергетических и транспортных проектах, а также перспективы мирных инициатив в регионе.

В статье утверждается, что реализуемые Азербайджаном энергетические и коммуникационные проекты, а также проводимая региональная дипломатическая политика, превратили страну в одного из важных акторов международной системы безопасности и сотрудничества. В этом контексте Мюнхенская конференция по безопасности оценивается как важная платформа для представления мирной и кооперационной повестки Азербайджана международной аудитории.


***Ключевые слова:*** *Мюнхенская конференция по безопасности, Южный Кавказ, региональная безопасность, энергетическая дипломатия, мирный процесс*


## Summary

### Aytekin Zeynalova

### Azerbaijan's dominant role in the global security architecture

The article demonstrates that the Munich Security Conference serves not only as a platform for discussing international security issues but also as a significant political-intellectual arena where the directions of global geopolitical processes are shaped. In the context of increasing contemporary global security challenges, strengthening mechanisms of international dialogue and cooperation becomes particularly important. From this perspective, the Munich Security Conference stands out as one of the key platforms where the views of world leaders and leading experts on the architecture of global security are formed.

The article analyzes the statements made by Ilham Aliyev within the framework of the conference regarding regional security, energy cooperation, and the peace agenda, in the context of international discourse. At the same time, it examines issues such as the security environment in the South Caucasus, Azerbaijan's growing role in energy and transport projects, and the prospects for peace initiatives in the region.

The article argues that Azerbaijan's implemented energy and communication projects, along with its regional diplomatic policy, have transformed the country into a key actor within the international system of security and cooperation. In this regard, the Munich Security Conference is evaluated as an important platform for presenting Azerbaijan's peace and cooperation agenda to the international audience.


***Keywords:*** *Munich Security Conference, South Caucasus, regional security, energy diplomacy, peace process*